

Qədiməli Əhməd

## ÖZ MƏSAFƏNDƏ

Susursan yenə də öz məsafəndə,
susan gözlərinin qucağı bomboş.
İçində qurduğun xəyal evidi,
yanıb külə dönən ocağı bomboş.

Bitib uzaq düşən yollar, küçələr,
bitib addımları gerçəklərin də.
Qarışan saçların şırımlarında
qar bitib ömrünün çiçək yerində.

Gəlməz gözlədiyin günlər, saatlar,
ötən boş zamana nə ad qoyasan?
Xoşbəxtlik yalançı xəyal olsa da,
bir az yaşayasan, bir az doyasan.

Yenə də bir səs var, onu da dinlə,
uzaqlar "dəmindi", yaxınlar qəmin...
Yenə bir ağrı var, durar səninlə,
doğmandı, yadındı, əmin ol, əmin...

## DÜŞÜNDÜKCƏ YOLLAR KEÇƏR GÖZÜNDƏN...

Düşündükcə
yollar keçər gözündən...

Zaman ayrılığa qapıdı,
qınasan da
özünü,
içindəki susanı,
məsafələri...

Bəlkə də,
demədiklərin,
deyə bilməyəcəklərin
ağrıdar ürəyini.
Belə olur həmişə
başa düşülməyəndə...
Səssizcə
yorularsan,
boğularsan özündə...

Bir az da özünü yaz,
unut hər şeyi,
yalnızlığını,
qaranlıq gecələri,
gəlməyən səhərləri,
unut... unut...

## SƏNİ OXUYANDA

Səni oxuyanda
sinifdənxaric oxu saatlarıydı
bütün dərslər.

Cəza kəsmişdi mənə
sinif rəhbərimiz də...

Höccələyib oxudum
dünyanın
həyat adlı kitabını,
Gördüm axırı heçdi,
torpaqdı,
daşdı insan.
Ancaq məhəl qoymadı,
qanunlar çərçivəsinə
neçə yol aşdı insan.

İndi həyat
sinifdənxaric oxu dərsi kimidi...

## REPORTAJ

Bu kölgəsiz yerlərdə
istidən yanır bədən.
Atdığım daşlar qayıdır,
qaça bilmirəm nədən?

Həyat elə solğunlaşır,
ölümlər göz içində.
Dilənçi də qazancıyla
kef çəkir öz içində.

Bir az da dünya qarışır,
arı pətəyi kimi.
Bir az da qəm döyür ömrü
zaman kötəyi kimi.

Yollarınsa ayrılığı
ümiddən də yeyinmiş.
Yer üzünü addım-addım
ayağına geyinmiş.

## SARALIB HƏYATIN GÜL LƏPİRLƏRİ

Yağış layla çalır yorğun gecəyə,
sükut mürgüləyir pəncərənizdə.
Ayrılıq küləyi əsir küçədə,
həsrət yuva qurur solğun bənizdə.

Unudub gedirsən, demə yolları,
nə bax qəmə köklən, nə azca sızla.
Mənim ömrüm keçib illərin üstə,
illər sevincimi ayaqlamaqla.

Saralıb həyatın gül ləpirləri,
tökülüb sevdanın ayaqlarına.
Nə mən o oğlanam, nə sən o qızsan,
eşqin məlhəmilə yaram sarına.

Mənim ömrüm keçib illərin üstə,
sənin dönməyinə daha güman yox.
Xəyalım dəyişib yolun səmtini,
gedirəm, durmağa vaxt dar, zaman yox...

## GEDİRSƏN

Gedirsən
sənin olan
və olmayanlardan...
Gedirsən ayaqlarınla,
əllərinlə,
gözlərinlə,
vücudunla,
Üzündə payız saralır,
gözlərində yaş,
saçında duman.

Mən səndə yaşayıram,
sən tənhalığında, şair...
Bu, necə olur?
Hər gün həyatında bir gecə olur...
Gedirsən...

## ÇİYƏLƏK ƏTRİN

Nə yaxşı, qayıtdın ilkin çağına,
Saçın da əvvəlki, baxışların da.
Bir ovuc xəyalı asıb
gözünün
yenə isladırsan yağışlarında.

Ömrün yazı da var, payızı da var,
Vaxta hesablanıb gedirik, nə qəm...
İndi xəfif-xəfif yellər oynayan
Pırpız saçlarını çoxdan sevmişəm.

Daha yadırğamaz güzgülər səni,
Oxşayar saçını barmaqlarım da.
Sənin ətrin gələr, çiyələk ətrin
Hər gecə odama barmaqlarımda.

## GÜNAHKAR ƏLLƏR

Azadlığın da əzabın kimi ağrı,
Məngirlənib həyatın
zəbt olunub hər şeyin...

Xəttin bir başında sən,
bir başında ümidin,
Vaxt öldürür içində səndən gedən saatlar.
Sənin arzuların da əllərdə bir oyuncaq,
Günahsız əllərində
günahkar əllər gəzir...

## UNUT DARIXMAQLARI

Yox, bu sətirlərdəki
bir ürəyin harayı...
Bu məktubda bir eşqin
uçub ömür sarayı.

Hər sözdən, hər nöqtədən
boylanırsan, baxırsan.
Çiliklənən bir qəlbi
nədən belə yaxırsan?

Düşmədin bu yuvada,
bu yuvanın odu yox.
Susuram,
tənhalıqda
keçən ömrün dadı yox.

Uyudun yad ocaqda,
özün qırdın bağları.
İndi unut içində,
unut darıxmaqları.

Yox, bu sətirlərdəki
bir ürəyin harayı...
Bu məktubda bir eşqin
uçub ömür sarayı...

## GÖZLƏRİNLƏ QOVUŞANDA

Ulduzları yığ gözlərinə, gözəllikdi...
Səhərsə gələcək,
mütləq gələcək...
Ulduzlar sevilər gözlərinə görə,
Ay əzizlənər
baxışlarına görə.
Baxacaqsan,
susacaqsan
gözlərinlə ulduzlar qovuşanda...

